*Tədris Mərkəzinin “26” sentyabr 2012-ci il tarixli*
*1295040100111800 nömrəli əmrinə Əlavə*

**Tədris Mərkəzində dinləyicilərin yataqxanadan istifadə**

**Q A Y D A L A R I**

Dinləyicilər Tədris Mərkəzində kursda olduğu müddətdə yataqxana ilə təmin olunurlar. Dinləyicilərin yataqxanadan istifadəsi qaydalarına əməl etməsi rəhbərliyin xüsusi nəzarətindədir.

Tədris Mərkəzinin yataqxanasında dinləyicilər üçün aşağıdakı **qaydalar** tətbiq edilir:

1. Yataq otaqları səliqəli və təmiz saxlanılmalı, otaqlarda və dəhlizdə sakitliyə riayət olunmalıdır.

2. Yataqxanada kənar şəxslərin qalmasına icazə verilmir.

3. Yataq otaqlarında yemək hazırlamaq olmaz.

4. Yataq otaqlarına alkoqollu içkilərin gətirilməsi və istifadəsi qəti qadağandır.

5. Xüsusi ayrılmış yerlərdən başqa Mərkəzin yataqxanasında və yaşayış otaqlarında siqaret çəkmək qəti qadağandır.

6. Tədrisdən kənar tədbirlərin və dinləyiciləri narahat edə biləcək əyləncələrin saat 23.00-dan sonra keçirilməsi yolverilməzdir.

7. Tədrisdən kənar vaxtlarda Tədris Mərkəzinin ərazisində sakitliyə riayət olunmalıdır.

8. Yataqxana otaqlarında qeyri-standart, nasaz və istifadəsi nəzərdə tutulmayan elektrik avadanlıqlarından istifadə etmək olmaz. Hər hansı bir nasazlıq (naqillərin qızması, lampaların nasazlığı, qığılcım və s.) aşkar edilərsə, təhlükəsizlik vəziyyətinə gətirilənədək elektrik cərəyanı dərhal kəsilməlidir.

9. Hər bir dinləyici yaşayış yerində elektrikdən düzgün istifadəyə və yanğından mühafizə qaydalarına əməl etməyə görə məsuliyyət daşıyır.

10. Yataqxanada yanğın və yaxud yanma əlamətləri (tüstü, yanıq iyi, temperaturun yüksəlməsi və s.) hiss edilərsə, bu halda hər bir şəxs:

- özünün və digər şəxslərin təxliyəsini təmin edərək yanğının söndürülməsi və maddi dəyərlilərin qorunub saxlanması üzrə mümkün tədbirləri görməlidir;

- telefonla Tədris Mərkəzinin rəhbərliyinə təcili məlumat verməklə Yanğından mühafizə idarəsinə (112) zəng etməlidir (bu zaman həmin şəxs öz adını və soyadını, obyektin ünvanını, yanğın baş verdiyi yeri bildirməlidir).

11. Dinləyicilər Mərkəzin iaşə və məişət xidmətlərindən, idman-sağlamlıq kompleksindən müəyyən edilmiş qaydada və vaxtda (qrafikə uyğun) istifadə edə bilərlər.

12. Tədrisdən kənar vaxtlarda dinləyicilər inzibati hissəyə, yeməkxanaya gedərkən mövsümə uyğun sadə mülki geyim formasından istifadə etməlidirlər.